# İbtidai siniflərdə nitq inkişafı üzrə sinifdənxaric işlərin mahiyyəti

**Nuranə Kamil qızı İsmayılova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** nismayilova1010@gmail.com

**Rəyçilər:** filol.ü.f.d., dos.T.Ç. Şükürlü,
p.ü.f.d.,dos. G.V. Sultanova

**Açar sözlər:** sinifdənxaric tədbir, şifahi nitq, inkişaf, ibtidai sinif, rollu oyun
**Ключевые слова:** внешкольная деятельность, устная речь, развитие, начальная школа, ролевые игры
**Key words:** extracurricular activities, oral speech, development, elementary school, roll game

Azərbaycan dili təliminin başlıca prinsiplərindən biri nitq bacarıqlarının, nitq mədəniyyətinin inkişaf etdirilməsidir. Nitq insanın sosial mənşəyinin parlaq göstəricisidir. Nitq işləri üzrə vərdişlərin yaradılmasına isə ibtidai siniflərdən başlamaq lazımdır. Birinci sinfə qəbul edilmiş uşaqların nitqi üzərində müşahidə apararkən müşahidə edirik ki, ailədən məktəbə gələn uşaqlarla uşaq bağçasından məktəbə gələn uşaqların nitqi arasında böyük fərq olur. Buna görə də məktəbdə uşağın nitqi üzərində planlı iş aparılmalıdır. Uşağın nitqinin inkişaf etdirilməsi dedikdə, dili mənimsəməkdə ona kö-mək göstərmək, bu məqsədlə nitq orqanlarını məşq etdirmək, dilin leksik və qrammatik işarələrinin başa düşülməsini asanlaşdırmaq, morfem, söz, söz birləşməsi və cümlə kimi dil işarələrinin nitqdə işlədilmə ənənəsini asanlaşdırmaq nəzərdə tutur. Uşaqların nitqinin inkişafı üzrə işi düzgün təşkil etmək üçün müəllim dilçilik elminin nailiyyətlərinə istinad etməlidir. (1, səh.50)

Şifahi nitqə bir sıra tələblər verilir: zənginlik, məzmunluluq, məntiqi ardıcıllıq, düzgünlük, aydınlıq, dəqiqlik, ifadəlilik, təmizlik. Uşaqlarda şifahi nitqi formalaşdırmaq üçün onun forma və məzmununun vəhdəti əsas götürülür. Şagirdlərin nitqinin düzgün inkişaf etdirilməsi üçün ümumi didaktik tələblər gözlənil məlidir. Yəni, nitq inkişafı üzrə işi xüsusi dərslər və məşğələlərlə məhdudlaşdırmaq olmaz. Nitq inkişafı üzrə iş digər fənlərin tədrisi prosesində, sinifdənxaric məşğələlərdə də təşkil edilməlidir. Nitq inkişafı üzrə iş kompleks şəkildə aparılmalıdır. Bu prosesdə mümkün qədər müxtəlif, rəngarəng üsul, vasitə və priyomlardan istifadə olunmalıdır. (2, səh.86)

Şagirdlərin elmi və bədii təfəkkürünün inkişafı çətin, həm də uzun proses olduğu üçün onu yalnız dərslə məhdudlaşdırmaq olmaz. Təcrübə göstərir ki, sinifdənxaric tədbirlər şagirdlərin təlimə marağını artırmaqla yanaşı, həm də onların nitq mədəniyyətinə qüvvətli təsir göstərir. Düzdür, sinifdənxaric və məktəbdənkənar tədbirlər məktəbin tədris proqramına daxil deyil, könüllülük prinsipinə əsaslanır və bir növ sinifdə aparılan işlərin davamı olur. Deməli, sinifdənxaric və məktəbdənkənar tədbirlər yalnız öz formasına görə tədris prosesindən fərqlənir, məzmununa görə isə bu proseslə birləşir. Ona görə də biz müəllimlər bu işə ciddi əhəmiyyət verməliyik.

Sinifdənxaric işlərin formaları çox müxtəlif və rəngarəngdir. Lakin yadda saxlamaq lazımdır ki, sinifdənxaric işlərin bu və ya digər formasını seçərkən, mövzuları müəyyənləşdirərkən yerli şəraiti, məktəbin tələbatını, şagirdlərin marağını, yaş və bilik səviyyəsini və bir sıra digər

məsələləri mütləq nəzərə almaq lazımdır. İbtidai siniflərdə nitq inkişafı üzrə sinifdənxaric işlərə misal olaraq sinifdənxaric oxunu misal göstərmək olar. Sinifdənxaric oxunun təşkili üzrə aparılan işlər ibtidai siniflərdə oxu təliminin mühüm sahələrindəndi. Bu işin səmərəli təşkili isə şagirdlərin intellektual və emosional inkişafına, həmçinin müxtəlif fənlər üzrə biliklərin dərindən və şüurlu mənimsənilməsinə güclü təsir göstərir.

Sinifdənxaric oxunun məqsədi I-IV sinif şagirdlərinin oxu və yazı vərdişlərinin təkmilləşdirilməsini təmin etməklə, təbiət və ictimai həyat haqqında onların dərsliklərdən aldıqları bilikləri genişləndirmək, təfəkkürünü bədii obrazlarla zənginləşdirmək, nitqini, fantaziyasını inkişaf etdirmək, vətənə, xalqa, ana dilinə, elmə və s. məhəbbət hissləri tərbiyə etmək, humanist hisslər aşılamaq, onlarda kitabla müstəqil işləmək və ona böyük həvəs yaratmaqdır.

Bu məqsədə müvafiq olaraq, sinifdənxaric oxunun qarşısında müəyyən vəzifələr durur:

- şagirdlərdə uşaq ədəbiyyatına maraq və məhəbbət hisslərinin tərbiyə olunması;
- şagirdlərin oxu vərdişlərinin təkmilləşdirilməsi;
- şagirdlərə ana dilinin dərindən mənimsədilməsi; onun gözəlliyinin, böyük qüdrətinin dərk etdirilməsi, onlardan zövq almaq qabiliyyətinin formalaşdırılması, nitq və təfəkkürlərinin inkişaf etdirilməsi;
- oxunan materialın məzmunundan tərbiyəvi ideyanın çıxarılması;
- vətənimiz, onun qüdrəti, xalqımızın qəhrəman keçmişi, bu günü və gələcəyi, yaratdığı xarüqələr, doğma təbiətimizin zənginliyi və s. əlaqədar şagirdlərin təsəvvürlərinin zənginləşdirilməsi;

Görəsən, bir sinifdənxaric oxu üçün hər dəfə neçə əsərin müzakirəsini tapşırmaq olar? Əlbəttə, bu məsələ müəllimdən bir qədər dərin düşünmək, götür-qoy etmək tələb edir. Müəllim şagirdlərin bu sahədəki təcrübəsini və ümumi inkişafını, onlara tövsiyə etdiyi əsərin həcmini diqqət mərkəzində saxlamalıdır. Əgər müəllimin məqsədi tutaq ki, IV sinifdə sinifdənxaric oxu məşğələsində müəyyən bir kitabın müzakirəsini keçirməkdirsə, o zaman sinfə yalnız bir kitab verə bilər. Yaxud, I-IV siniflərdə I və II yarımilin sonunda sinifdənxaric oxu materiallarının xatırlanmasına həsr olunmuş toplanış keçiriləcəksə, bu zaman müəllim şagirdlərə 8-10 kitabın təkrar oxusunu tövsiyə edə bilər. Qalan bütün hallarda sinifdənxaric oxu üçün şagirdlərə 2-3 kitabın oxusu tapşırılmalıdır. Həmin kitabları əvvəlcədən müəllim özü oxumalı, onların məzmunu, ideyası ilə əlaqədar sual və tapşırıqlar hazırlanmalıdır. Müzakirə prosesində hər dəfə şagirdlərin diqqətini tərbiyəvi nəticənin çıxarılmasına yönəltməlidir.

Bundan əlavə sinifdənxaric işlərin təşkili zamanı uşağın nitqinin düzgün inkişafını təmin etmək üçün oyunlardan da istifadə etmək lazımdir. Bu, elə bir fəaliyyət növüdür ki, şagirdlərin sosial davranışına, onların həyata və bir-birinə olan münasibətlərinin formalaşmasına əsaslı təsir edir. Məşhur pedaqoq A.S.Makarenko uşaq oyunlarının rolunu belə xarakterizə etmişdir: *"Oyun uşaqlar üçün böyüklərin iş fəaliyyəti qədər dəyərlidir. Uşaq oyunda özünü necə aparırsa, gələcəkdə işləyəcəyi yerdə də bir çox hallarda özünü elə aparacaq. Beləliklə, gələcəyin lideri oyun oynayaraq təhsil alır..."* K.D.Uşinski qeyd edirdi ki, uşaqların ümumi və psixi sağlamlığını müəyyən etmək üçün onların oyununun müşahidə edilməsi əhəmiyyətlidir. Əgər uşaq oyunlara maraq göstərmirsə və ya öz yaşına görə stereotip, passiv və ya bəsit oynayırsa, bu, böyüklər üçün ciddi siqnal olmalıdır: belə uşaq xüsusi diqqət tələb edir. Bu "xüsusi" uşaq ya istedadlıdır, ya da əqli geriliyə malikdir. Oyun həm uşağın psixoloji vəziyyətinin və şəxsiyyət kimi inkişafının diaqnostikasını aparmaq üçün bir vasitədir, həm də uşağın inkişafındakı ləngiməni və qüsurları aradan qaldırmaq üçün əla metoddur.

Rollu oyun oynayarkən şagird hər hansı bir obrazı canlandırır, öz təəssüratlarını üzə çıxarır. Oyun vəziyyətinin xəyal olduğunu anlayan uşaqlar buna baxmayaraq, olduqca real hisslər və

təcrübələr yaşayır və bununla da daxili dünyalarını zənginləşdirirlər. Psixoloqlar hesab edirlər ki, rollu oyun uşaq oyunlarının inkişafının ən yüksək formasıdır. Rollu oyun uşaqların nitqində, idraki inkişafında böyük əhəmiyyət kəsb edir, onlarda diqqəti və yaddaşı inkişaf etdirir. Tərəfdaşlar ilə birgə oyun zamanı uşaqlar ünsiyyət qurmağı, başqalarının istək və fəaliyyətlərini nəzərə almağı, fikirlərini müdafiə etməyi, təkid etmə qabiliyyətini, həmçinin birgə planlar hazırlamağı və həyata keçirməyi öyrənirlər. Müxtəlif rolları yerinə yetirərkən, uşaq müxtəlif fəaliyyətlərin bütün aspektlərini əhatə etməyə başlayır ki, bu da öz növbəsində insanın düşüncə qabiliyyətini inkişaf etdirməyə, başqasının fikrini qəbul etməyə kömək edir, öz fikirlərini müstəqil şəkildə qarşısındakına çatdırmağa şərait yaradır.

Dərsdənkənar məşğələdə uşaqlarla aparılacaq oyunlardan bir neçəsinə nəzər salaq.

Oyunun adı : “Su nədir?”.

*Məqsəd: Oyun nitqi inkişaf etdirir, zehni genişləndirir.*

Məşğələ zamanı şagirdə suallar verin ki, fərqli anlayışları əlaqələndirməyi, cavabları ümumiləşdirməyi və dəqiq tərtib etməyi öyrənsin.

Məsələn: "Niyə suya ehtiyacımız var?" - "İçmək, çiçəkləri sulamaq, çimmək ."

Niyə bir qaşığa, stola, ehtiyacımız var ? və s.

Tədricən suallar daha da çətinləşməlidir, məsələn: "Niyə bizə kompüter, TV, günəş, gündüz, gecə lazımdır?"

Oyunun adı: ”Qarşılıqlı fikir mübadiləsi”

*Məqsəd: Oyun nitq, məntiq, diqqəti inkişaf etdirir.*

Şagirdin sizin düzgün danışıb danışmadığınızı təxmin etməyini və əgər olmadıqda sizin söylədiyiniz fikri düzəltməsini istəyin. Cümlələr gülməli olmalıdır: "Döşəmə masadadır", "Divan atanın üstündə uzanır", "Tavan işıq lampalarına asılıb" və s.

Şagird uyğunsuzluğu dərhal hiss edəcək və necə düzgün danışacağını söyləyəcək.

Bir neçə səhv ifadədən sonra düzgün birini deyin: "Ayı yerdə oturur." “Ulduzlar gecə çıxır” . Bu zaman şagirdin nə qədər diqqətli olduğunu da yoxlamış olacaqsınız.

Bir neçə mərhələdən sonra oyunu çətinləşdirin. Məsələn, deyin: "Çöldə çox isti olur, buna görə bir palto, şapka və çəkmələr taxacağıq". Və s. (3, səh.288)

Oyun iki şagird arasında da aparıla bilər və mütəmadi olaraq rollar dəyişdirilməlidir.

**Məqalənin aktuallığı.** Sinifdənxaric tədbirlər zamanı şagirdlərin nitq inkişafının təşkili imkanlarını müəyyənləşdirmək məqalənin aktuallığını təşkil edən əsas məsələlərdən biridir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ilk dəfə olaraq ibtidai siniflərdə nitq inkişafı üzrə sinifdənxaric işlər tədqiqata cəlb olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Sinifdənxaric tədbirlər şagirdlərin şifahi nitq bacarıqlarını necə inkişaf etdirmək sahəsində müəllimlərə öz köməyini göstərəcəkdir.

## Ədəbiyyat

1. N. Cəfərova. Nitq inkişafı üzrə işin metodikası. Bakı, 2018.

2. S.A. Rəhimova. İbtidai siniflərdə elmi kütləvi materialların tədrisinin vasitə və yolları. Bakı, 2003.

3. Ə.Əlizadə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 1998.

**Н.К. Исмаилова**

## Суть внеклассной работы по развитию речи в начальной школе


### Резюме

В статье отмечается, что внеклассные занятия играют важную роль в формировании и развитии устной речи студентов. Внеклассные мероприятия представляют большой интерес для студентов. В этом случае очень важно использовать ролл игры. В то же время внеклассные занятия играют важную роль в развитии логического и творческого мышления учащихся.


**N.K. Ismayilova**

## The essence of extracurricular work on speech development in elementary school


### Summary

The article notes that extracurricular activities play an important role in the formation and development of students' oral speech. Extracurricular activities are of great interest to students. In this case, it is very important to use roll games. At the same time, extracurricular activities play an important role in developing students' logical and creative thinking.


**Redaksiyaya daxil olub:** 29.02.2020